**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**
**BAKI DÖVLƏT UNİVERSİTETİ**

*Əlyazması hüququnda*

**SƏBİNƏ HƏMİD qızı ƏZİZOVA**

# MÜLKİ PROSESDƏ YETKİNLİK YAŞINA ÇATMAYANLARIN HÜQUQLARININ TƏMİNATI: BEYNƏLXALQ STANDARTLAR VƏ AZƏRBAYCAN RESPUBLİKASININ QANUNVERİCİLİYİ

**İxtisaslar: 5615.01 – "Mülki proses"**
**5603.01 – "Beynəlxalq hüquq; insan hüquqları"**

**Hüquq üzrə fəlsəfə doktoru elmi dərəcəsi**
**almaq üçün təqdim edilmiş dissertasiyanın**

# AVTOREFERATI

**BAKI-2017**

Dissertasiya işi Bakı Dövlət Universitetinin “Mülki proses və kommersiya hüququ” kafedrasında yerinə yetirilmişdir.

**Elmi rəhbərlər:** **hüquq üzrə elmlər doktoru, professor**
**Əmir İbrahim oğlu ƏLİYEV**

**hüquq üzrə elmlər doktoru, dosent**
**Mövsüm Allahverdi oğlu MÖVSÜMOV**

**Rəsmi opponentlər:** **hüquq üzrə elmlər doktoru, professor**
**Andrey Vladimiroviç QRINYAK**

**hüquq üzrə elmlər doktoru**
**Nizami Abdulla oğlu SƏFƏROV**

**Aparıcı təşkilat:** **AMEA, Hüquq və İnsan haqları İnstitutu**

Dissertasiya işinin müdafiəsi “___” __________2017-ci il tarixdə saat _____ Bakı Dövlət Universitetinin nəzdində təşkil edilmiş FD.02.013 Dissertasiya şurasının iclasında keçiriləcəkdir.
Ünvan: AZ 1148, Bakı şəhəri, akademik Z.Xəlilov küçəsi 23, Bakı Dövlət Universiteti, I tədris korpusu, 901 saylı auditoriya.

Dissertasiya ilə Bakı Dövlət Universitetinin kitabxanasında tanış olmaq olar.

Avtoreferat “___” __________2017-ci ildə göndərilmişdir.

**FD. 02.013 Dissertasiya şurasının**
**elmi katibi, h.ü.f.d., dosent** **Ə.Q. MƏMMƏDOV**

## İŞİN ÜMUMİ XARAKTERİSTİKASI

**Dissertasiya tədqiqatının aktuallığı.** Azərbaycan Respublikasının (*daha sonra* - AR) Konstitusiyasında təsbit edilmiş insan hüquqlarını və azadlıqlarını qorumaq qanunvericilik, icra və məhkəmə hakimiyyəti orqanlarının vəzifəsi hesab edilmişdir. Sadalanan orqanların içərisində mülki hüquqların məhkəmədə müdafiə forması üstünlük təşkil edir və Konstitusiyanın 60-cı maddəsinə əsasən "hər kəsin hüquq və azadlıqlarının məhkəmədə müdafiəsinə təminat verilir". Qeyd edilən konstitusion müddəalar XX əsrin sonunda Azərbaycanda keçirilən hüquqi islahatların əsasını təşkil edərək 1999-2000-ci illərdə qəbul edilən müxtəlif qanunvericilik aktlarında öz əksini tapmışdır. 28 dekabr 1999-cu ildə qəbul edilən AR Mülki Prosessual Məcəlləsi (*daha sonra* - MPM) 1 sentyabr 2000-ci ildə qüvvəyə minmişdir.

İnsan hüquqları və azadlıqlarının müdafiəsi sahəsində fundamental sayılan beynəlxalq sənədlərin - 1948-ci il tarixli İnsan hüquqlarına dair Ümumi Bəyannamə, 1966-cı il tarixli Mülki və siyasi hüquqlar haqqında Beynəlxalq Pakt və 1950-ci il tarixli İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında Avropa Konvensiyasının müddəaları və normaları beynəlxalq standartlar kimi qəbul edilir. Sadalanan beynəlxalq aktlarda uşaq hüquqları umumi insan hüquqları çərçivəsində bəyan edilirdi. Lakin uşaq hüquqlarının müdafiəsi üzrə mövcüd olan beynəlxalq standartların normativ həcmi daha genişdir və 1989-cu il tarixli BMT-nin Uşaq hüququları haqqında Konvensiyanın, 1985-ci il tarixli Yetkinlik yaşına çatmamış şəxslər haqqında ədalət mühakiməsinin həyata keçirilməsi üçün BMT-nin minimal standart qaydalarının (Pekin qaydalarının), və 1996-cı il tarixli Uşaq hüquqlarının həyata keçirilməsi haqqında Avropa Konvensiyasının normalarını daxil edir. Özünün məqsəd və funksional xüsusiyyətlərinə görə xüsusi tənzimetmə tələb etsə də, uşaq hüquqlarının tənzim edilməsində əsas istiqamət insan hüquqları amilidir.

İnsan həyatının ilkin dövrü, yəni uşaqlığı, anadan olan andan 18 yaşına (yetkinlik yaşına) çatana qədər dövrü əhatə edir və məhz insan ömrünün bu dövrü dövlətin və cəmiyyətin xüsusi qayğısı altında mühafizə olunur.

AR-nın müvafiq qanunvericiliklərində yetkinlik yaşına çatmayanı hüququn müstəqil subyekti kimi qəbul edilməsi beynəlxalq standartların tələblərinə cavab verir. AR-da yetkinlik yaşına çatmayanların hüquq və maraqlarının məhkəmə müdafiəsinin təminatı həm MPM-nin müddəalarında, həm də bəzi maddi qanunvericiliklərin (Ailə Məcəlləsi, Mülki Məcəllə, Əmək Məcəlləsi və s.) prosessual xarakterli normalarında möhkəmləndirilmişdir. Qeyd edək ki, əsasən

mülki prosessual hüquqları tənzimləyən 1996-cı il tarixli Uşaq hüquqlarının həyata keçirilməsi haqqında Avropa Konvensiyası Milli Məclis tərəfindən hələ ki, ratifikasiya olunmayıb, lakin uşaqların mülki icraatda prosessual hüquqları yetərincə müvafiq qanunvericiliklərdə təsbit olunub.

AR-da əhali arasında yetkinlik yaşına çatmayanların sayı 30%-dən artıq hesablanır. Qeyd etməliyik ki, rəsmi statistik məlumatların əsasında yetkinlik yaşına çatmayanların dəqiq sayını müəyyən etmək mürəkkəb məsələdir. Belə ki, rəsmi statistik məlumatlarda bizi maraqlandıran yaşda olan əhalinin sayı iki qrupa bölünməklə göstərilir: yaşı 14-dək olanlar (bunlar "uşaqlar" kateqoriyası kimi adlanır) və 14-dən 29 yaşa qədər olanlar (bunlar isə "gənclər" kateqoriyası kimi adlanır). Aydındır ki, ikinci qrupdan, yəni "gənclər" kateqoriyasından 14-18 yaş arasında olan şəxslərin sayını dəqiqləşdirmək bizim gücümüzdə deyil. Lakin rəsmi statistik məlumatlara uyğun biz dəqiq müəyyən olan "uşaqlar" (yəni yaşı 14-dək olanlar) kateqoriyasının ümumi əhalinin 22%-ni təşkil etdiyini deyə bilərik. Bu göstərici də postsovet məkanında Rusiya Federasiyası (*daha sonra* -RF), Ukrayna, Pribaltika dövlətlərdəki, ümumiyyətlə yetkinlik yaşına çatmayanların (yəni yaşı 18-dək olanların) sayından çoxdur və əksinə olaraq Orta Asya dövlətlərindəki uşaqların sayından azdır. Avropa dövlətlərindəki orta statistik məlumatlarla müqayisədə də Azərbaycanda əhali arasında uşaqların sayı daha çoxdur.

Ədliyyə Nazirliyinin statistik məlumatlarından göründüyü kimi, məhkəmələrdə yetkinlik yaşına çatmayanların hüquq və maraqları ətrafında baxılan mülki işlərin sayı ildən ilə artır və bu işlərdə mütləq çoxluğu nikahın pozulması, ondan sonra məhkəmə qaydasında atalıq faktının və atalığın tanınması faktının müəyyən olunması və övladlığa götürmə və ya övladlığa götürmənin ləğvi təşkil edir. Bu səbəbdən də sosial konfliktlərin, ailə mübahisələrinin tənzimlənməsində yetkinlik yaşına çatmayanların pozulan hüquqlarını təmin edən məhkəmə orqanlarının rolu olduqca böyükdür.

Dissertasiya mövzusunun aktuallığı həmçinin onunla izah olunur ki, yetkinlik yaşına çatmayanların hüquq və qanuni maraqlarının məhkəmə müdafiəsini təmin edən AR-nın mülki prosessual qanunvericiliyində bəzi hallarda boşluqlara və ziddiyətlərə rast gəlinir. Mülki prosessual qanunvericilikdə yetkinlik yaşına çatmayanın ümumi anlayışı verilməməmişdir və cinayət qanunlarından (həm maddi – Cinayət Məcəlləsinin (CM) 5 və 22 fəsli, həm prosessual – Cinayət Prosessual Məcəllənin (CPM) L fəsli) fərqli olaraq mülki qanunlarda (həm maddi – Mülki Məcəllədə (MM), həm

prosessual - MPM) yetkinlik yaşına çatmayanlara aid məsələlər ayrıca fəsildə cəmlənməmişdir.

İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında Avropa Konvensiyasının və onun 1, 4, 6 və 7 saylı Protokollarının Milli Məclis tərəfindən ratifikasiya edilməsi və İnsan hüquqları üzrə Avropa Məhkəməsi qərarlarının məcburi qüvvəsinin tanınması yetkinlik yaşına çatmayanların hüquqlarının məhkəmə müdafiəsinin səviyyəsini xeyli artırdı. Bu istiqamətdə AR Prezidenti İ.Əliyev tərəfindən 27 dekabr 2011-ci il tarixdə "AR-da insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramı"nın qəbulu xüsusi əhəmiyyətə malikdir.

Beləliklə, beynəlxalq təşkilatlar tərəfindən müəyyən edilən uşaqların hüquqlarının müdafiəsinin əsas istiqamətlərində AR-nın müəyyən müsbət təcrübəsi və müxtəlif sahələrdə yetkin qanunverici bazası vardır. Lakin bu müdafiənin daha da təkmilləşdirilməsinə böyük ehtiyac duyulur. Fikrimizcə, yetkinlik yaşına çatmayanların hüquqlarının müdafiəsi sahəsində AR-nın mülki prosessual hüququnun beynəlxalq standartlara uyğun gələcək inkişafının perspektivləri mediasiya prosedurunun, yuvenal məhkəmələrin, uşaq ombudsmanı institutunun təsisatı ilə bağlıdır. AR Prezidentinin 29 dekabr 2012-ci il tarixli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan 2020: gələcəyə baxış" inkişaf konsepsiyasında nəzərdə tutulmuş məqsədlərə çatmaq üçün də "qanunvericilik bazasının mütəmadi olaraq təkmilləşdirilməsi və müvafiq institusional potensialın gücləndirilməsi" qeyd olunur. Bütün qeyd edilənlər dissertasiya işinin mövzusunun aktuallığını şərtləndirir.

**Dissertasiya mövzusunun işlənmə dərəcəsi.** Dissertasiya mövzusuna dair müxtəlif ölkələrdə və müxtəlif vaxtlarda yetkinlik yaşına çatmayanların hüquq və maraqlarının müdafiəsinə ümumi olaraq insan hüquqlarının müdafiəsi kontekstində və ya mülki hüquq və prosesin ayrı-ayrı məsələlərinə həsr olunmuş elmi əsərlərin, xüsusi ədəbiyyatın çoxluğunun səbəbi anlaşılandır. Azərbaycanda dissertasiya mövzusunun bəzi aspektlərinin ətrafında ayrı-ayrılıqda beynəlxalq hüquq, insan hüquqları, mülki hüquq, ailə hüququ, əmək hüququ, mülki proses sahələrində bir sıra elmi əsərlər nəşr olunmuş, elmlər doktoru və elmlər üzrə fəlsəfə doktorluq işləri müdafiə edilmişdir. Müəlliflər arasında xüsusən Ə.İ.Əliyevin, R.F.Məmmədovun, L.H.Hüseynovun, M.A.Mövsümovun, M.D.Dəmirçiyevanın, A.M.Qasımovun, Z.İ.Cəfərovun, Ə.İ.Hüseynovun, M.S.Qəfərovun, Z.A.Əsgərovun, Ə.Q.Məmmədovun, Ş.İ.Əliyevin, Z.H.Əliyevin, M.N.Səmədovun, F.S.Mehdiyevin, N.A.Adilovun, V.Ə.İbayevin, K.R.Şəfiyevin və s. adlarını çəkmək olar. Tədqiq etdiyimiz mövzu üzrə əlaqədar rusdilli müəlliflərdən

O.S.Batova, Y.F.Bespalov, S.S.Boyko, M.V.Geller, L.N.Qalenskaya, L.Y.Qolışeva, N.Q.Yeliseyev, A.V.Zaryaev, V.D.Malkov, B.İ.İsmayilov, S.A.Stepanov, V.İ.Neçayev, Y.L.Zabarçuk, İ.İ.Lukaşuk, N.İ.Marışeva, İ.İ.Martinoviç, E.B.Melnikova, A.M.Neçayeva, Q.L.Osokina, L.İ.Popova, O.V.Sadina, L.V.Tumanova, N.D.Eriaşvili, S.Y.Çaşkova, Y.A.Çefranova, N.L.Xananaşvili, L.K.Xasina, R.Xismatullin, S.V.Çerçaqa və s., ingilis dilli müəlliflərdən isə C.Benedetto, İ.Brownlie, F.Carpi, A.Cassese, L.J.Clements, M.Fitzmaurice, P.Merkouris, M.G.Flekkoy, P.Gottwald, D.Y.Harris, M.O'Boyle, E.P.Bates, C.M.Buckley, S.J.Schnably, R.J.Wilson, S.J.Simon, V.M.Tushnet, D.Campbell, L.P.Gordan, M.O.Thomas, R.Verkerk və s. adlarını qeyd etmək olar.

**Dissertasiya tədqiqatının obyektini** mülki prosesdə yetkinlik yaşına çatmayanların hüquqlarının təmin edilməsində beynəlxalq standartlar və AR qanunvericiliyinin müqayisəli təhlili təşkil edir.

**Tədqiqatın predmetini** mülki icraatda yetkinlik yaşına çatmayanların hüquqlarını təmin edilməsi üzrə hüquqi məsələlər: hüquqi tənzimetmənin əsasları, yetkinlik yaşına çatmayanların hüquqlarının müdafiəsinin xüsusuyyətləri, hüquqi müdafiənin inkişaf perspektivləri, beynəlxalq standartların AR-nın hüquq sistemində implementasiyası və s. təşkil edir.

**Dissertasiya işinin məqsədi** yetkinlik yaşına çatmayanların hüquqlarının müdafiəsi sahəsində beynəlxalq hüququn və AR-nın mülki prosessual hüququn kompleks elmi-hüquqi təhlili, həmçinin Azərbaycan Respublikasının mülki prosessual hüququn proqressiv inkişafına insan hüquqları sahəsi üzrə beynəlxalq standartların təsirini müfəssəl tədqiq etməkdir.

Göstərilən məqsədlərə nail olmaq üçün tədqiqat işində qarşıya aşağıdakı **vəzifələr** qoyulmuşdur:

- beynəlxalq hüquqda, AR-nın və bəzi xarici dövlətlərin qanunvericiliklərində və bu məsələdə öz xüsusiyyətlərilə seçilən müsəlman hüququnda uşaq (yetkinlik yaşına çatmayan) anlayışının müəyyən etmək;
- insan hüquqlarının müdafiəsi sahəsində beynəlxalq standartların dövlətdaxili mülki prosesdə uşaq hüquqlarının təmin edilməsində rolunu müəyyənləşdirmək;
- mülki icraatda yetkinlik yaşına çatmayanların hüquqlarının müdafiəsinin forma və vasitələrini müəyyən etmək;
- tədqiqat mövzusu ilə əlaqədar AR-nın MPM, AM, MM-nin bəzi norma və müddəalarına dair *de lege ferenda* (arzu olunan qanun baxımından) qaydasında müəllif təkliflərini irəli sürmək;

- yetkinlik yaşına çatmayanların əmlak və şəxsi (qeyri-əmlak) hüquqlarının məhkəmə müdafiəsinin təhlili;

- yetkinlik yaşına çatmayanların iştirakı ilə baxılan işlərin mülki prosessual xüsusiyyətlərinin tədqiqi;

- mülki icraatda Avropa standartlarının və yetkinlik yaşına çatmayanların hüquqlarının müdafiəsi üzrə İnsan hüquqları üzrə Avropa Məhkəməsinin təcrübəsinin öyrənilməsi;

- dissertasiya mövzusu ilə bağlı statistik məlumatların öyrənilməsi və ümumiləşdirilməsi.

**Tədqiqatın metodoloji əsası və metodikası.** Normativ, empirik və nəzəri mənbələrin ümumiləşdirilməsi müasir elmdə mövcud olan idrak metodları və prinsipləri kompleksinin çoxsəviyyəli şəkildə tətbiqini zəruri etmişdir. Tədqiqat mövzusu dialektika, tarixi-hüquqi, müqayisəli hüquq, formal-məntiq, sistemli analiz, sənəd analizi, hüquqi modelləşdirmə və s. kimi ümumelmi, xüsusi və fərdi metodlarla öyrənilmişdir.

**Dissertasiyanın nəzəri bazası** fəlsəfə, məntiq, dövlət və hüquq nəzəriyyəsi və tarixi, beynəlxalq hüquq, insan hüquqları hüququ, müsəlman hüququ, mülki prosessual hüquq, mülki hüquq, ailə hüququ, əmək hüququ, mənzil hüququ sahələrinin ədəbiyyatlarına əsaslanır.

**Tədqiqatın normativ bazasını** insan hüquq və azadlıqlarının müdafiəsi sahəsində mövcud olan beynəlxalq aktların normaları (beynəlxalq standartlar), AR Konstitusiyası, qüvvədə olan mülki, ailə, əmək, mənzil, mülki-prosessual qanunvericilikləri, bir sıra xarici ölkələrin mülki prosessual qanunvericiliyi, AR-nın Konstitusiya Məhkəməsinin, Ali Məhkəmənin Plenumunun müvafiq qərarları təşkil edir.

**Tədqiqatın empirik bazasını** İnsan hüquqları üzrə Avropa Məhkəməsinin konkret işlər üzrə qərarları, AR-nın Konstitusiya məhkəməsi, Ali Məhkəməsi, Bakı və Şirvan apellyasiya məhkəmələri və ölkənin bəzi rayon məhkəmələri tərəfindən baxılmış mülki işlərin materialları; Ədliyyə Nazirliyinin statistik hesabat məlumatları, AR-nın və xarici ölkələrin əhalisinin tərkibinə dair statistik məlumatlar təşkil edir.

**Tədqiqatın elmi yeniliyi.** Dissertasiya işi mülki prosesdə yetkinlik yaşına çatmayanaların hüquqlarının təminatı istiqamətində aparılan ilk kompleks monoqrafik tədqiqat cəhdidir. Dissertasiya işində insan hüquqları üzrə beynəlxalq standartların və dövlət daxili qanunvericiliyin çərçivəsində əhalinin özünümüdafiə cəhətindən ən zəif hisəssi olan yetkinlik yaşına çatmayanların mülki prosessual hüquqları hərtərəfli tədqiq edilmişdir. Həm beynəlxalq hüquqda, həm də dövlətdaxili cinayət və cinayət prosessual hüququnda

yetkinlik yaşına çatmayanaların hüquqları ətraflı tədqiq olunduğu halda, mülki prosessual hüquqda onların hüquqlarının müdafiəsi hələ dissertasiya tədqiqatının obyekti olmamışdır. Müdafiəyə təqdim olunan dissertasiya işində beynəlxalq standartların tələblərini daha tam nəzərə almaq məqsədilə AR-nın mülki prosessual qanunvericiliyinin təkmilləşdirilməsi istiqamətində yeni müdəalar irəli sürülmüş və əsaslandırılmışdır.

Qeyd olunan mövqelərin əsaslandırılması dissertasiyanın elmi yeniliyini təşkil etməklə, aşağıdakı **yeni əsas müddəaların müdafiəyə çıxarılmasına** imkan verir:

1. Uşaqların (yetkinlik yaşına çatmayanların) hüquqlarının müdafiəsi sahəsində mövcud olan beynəlxalq standartların dairəsi daha genişdir: onlar həm insan hüquqları və azadlıqlarının müdafiəsi sahəsində fundamental sayılan beynəlxalq aktların normalarını, həm də xüsusi olaraq uşaq hüquqları üzrə qəbul edilən beynəlxalq aktların normalarını daxil edirlər. Bununla belə uşaqların hüquqlarının müdafiəsi sahəsində mövcud olan beynəlxalq standartlar insan hüquqları və azadlıqlarının müdafiəsi sahəsindəki beynəlxalq standartların tərkib hissəsidir.

2. Yetkinlik yaşına çatmayanların hüquqlarının müdafiəsi beynəl-xalq hüququn əsas prinsiplərindən biri olan insan hüquq və azadlıqlarına hörmət prinsipinin yalnız tərkib hissəsi kimi yox, ümumillikdə beynəlxalq və dövlətdaxili orqanların bəşəriyyətin gələcəyinə istiqamətlənmiş ən əsas birgə vəzifəsi kimi qəbul olunmalıdır.Bu baxışdan çıxış edərək, hesab edirik ki, mülki icraatda yetkinlik yaşına çatmayanların hüquqlarının müdafiəsinin üstünlüyü (prioriteti) haqqında müddəa qanunvericilikdə xüsusi olaraq vurğulanmalıdır. Təklif edərdik ki, AR MPM-nin 2-ci (mülki məhkəmə icraatının vəzifələri) maddəsində göstərilən məsələ öz əksini tapsın.

3. “Yetkinlik yaşına çatmayan” anlayışının hüquqi tədqiqi nəticəsində bir neçə müddəa müdafiəyə çıxarılır:

a) Baxmayaraq ki, “uşaq” və “yetkinlik yaşına çatmayan” anlayışları hüquq elmində sinonim kimi qəbul olunur, AR-nın müvafiq qanunlarında, qanunvericiliklərdə və əksər hallarda hüquq ədəbiyyatında qeyri-dəqiq şəkildə “uşaq” sözündən daha çox hüquqi məna daşıyan “yetkinlik yaşına çatmayan” sözü işlədilir. Beynəlxalq hüquqda isə müvafiq bəyannamələrdə, konvensiyalarda üstünlük “uşaq” termininə verilir;

b) Beynəlxalq hüquq istənilən dövlətin insan cismini döllənmə anından və ya anadan olan andan uşaq kimi tanınmasını qəbul edir. Bununla belə beynəlxalq hüquqda bir sıra normalar var ki, onlar hələ ana bətnində olan uşağın (yəni doğulmamış) müdafiəsini nəzərdə tutur (Mülki və siyasi

hüquqlar haqqında Beynəlxalq Pakt (mad.6), Müharibə qurbanlarının müdafiəsi haqqında Cenevrə Konvensiyalarına 1977-ci il tarixli I Əlavə Protokol (mad.6) hamilə qadına qarşı ölüm hökmünün tədbiqini qadağan edir. Belə hallarda hələ ana bətnində olan uşağın həyatı hamilə vəziyyətində olan qadının həyatının xüsusi mühafizəsi nəticəsində bilavasiyə yox, dolayısı ilə qorunur. Bu da o deməkdir ki, beynəlxalq hüquqda ana bətnində olan (hələ doğulmamış) uşağın həyat hüququ mütləq hüquq olaraq tanınmır;

c) AM-nin 55-ci (Uşağın əmlak hüquqları) maddəsinin hüdudlarında "uşaq" və "yetkinlik yaşına çatmayan" anlayışlarına terminoloji aydınlıq gətirmək lazımdır. Həm beynəlxalq hüquqda (Uşaq hüquqları haqqında Konvensiyası, mad.1), həm də AR-nın qanunvericiliyində (AM, mad.49.1) bu anlayışlar bərabərləşdirilir. Lakin, eyni zamanda AR-nın mülki və ailə qanunlarında "uşaqlar" anlayışı daha geniş mənada istifadə olunur və yalnız şəxsin 18 yaşına çatması ilə məhdudlaşdırılmır (məsələn, vərəsəlik məsələlərində);

d) yetkinlik yaşına çatmaq" anlayışı mülki-hüquqi və cinayət-hüquqi münasibətlərində fərqlidir: cinayət və cinayət-prosessual qanunvericiliklərlə tənzimlənən cinayət-hüquqi münasibətlərdə şəxs "yetkinlik yaşına çatmayan" statusuna anadan olan andan 18 yaşı tamam olana qədər malik olur; mülki, ailə, əmək, mülki-prosessual və s. qanunvericiliklərlə tənzimlənən mülki-hüquqi münasibətlərdə şəxs "yetkinlik yaşına çatmayan" statusuna anadan olan andan tam həcmdə fəaliyyət qabiliyyətini əldə edənə qədər (yəni 16-dan 18 yaş arası) malik olur. Beləliklə, "yetkinlik yaşına çatmayan" anlayışı cinayət-hüquqi münasibətlərdə daha geniş ölçülür;

e) AR-nın mülki (yaşı 7-dək olanlar) və cinayət hüququnda (yaşı 14-dək olanlar) "azyaşlılar" anlayışları üst-üstə düşmür. Fərqi aradan qaldırmaq üçün MM-nin 28.3-cü (fiziki şəxsin mülki hüquq fəaliyyət qabiliyyəti) maddəsinin dəqiqləşdirilməsi təklif olunur;

f) Rəsmi statistik məlumatların əsasında yetkinlik yaşına çatmayanların dəqiq sayını müəyyən etmək məqsədilə təklif olunur ki, əhalinin sayı yaşı 14-dək olan (azyaşlılar), yaşı 18-dək olan (yetkinlik yaşına çatmayanlar) və 14-dən 29 yaşa qədər olan (gənclər) qruplar üzrə müəyyən edilsin;

g) Müsəlman hüququnda şəxsin yetkinlik yaşına çatması bir sıra xüsusiyyətlərlə fərqlənir. Birincisi, şəxsin yetkinlik yaşına çatması onun cinsi mənsubluğundan asılıdır; ikincisi, şəxsin yetkinlik yaşına çatması müəyyən yaş həddinə çatması ilə yox, onun cinsi mənsubluğundan asılı olaraq böyüyən orqanizminin bu və digər fizioloji vəziyyətə gəlib çatması

ilə ölçülür; üçüncüsü, hər bir şəxsin (cinsindən və fiziki inkişafindan asılı olaraq) yetkinlik yaşına çatması fərdi xarakter daşıyır.

4. Beynəlxalq hüquqda XX əsrdə (1989-cu il BMT Konvensiyasının 11, 12, 13 maddələrində; 1966-cı il Beynəlxalq Paktın 19-cu maddəsində; 1950-ci il Avropa Konvensiyasının 10 maddəsində; 1995-ci il MDB Konvensiyasının 11 maddəsində; 1948-ci il Ümümdünya Bəyannaməsinin 18-ci maddəsində bəyan edilən uşağın öz fikrini bildirmək hüququ islamda hələ VII əsrdə tanınırdı (spesifik şəkildə: yalnız 7 yaşı tamam olmuş oğlan uşaqlarının).

5. Təklif olunur ki, valideyn himayəsindən məhrum olan uşaqları övladlığa verilməsindən başqa, bu uşaqları ailə tərbiyəsinə verilmənin başqa növləri (qəyyumluq, himayəyə və ya himayədar ailəyə verilmə) də məhkəmə qaydasında həll olunsun. Bu halda valideyn himayəsindən məhrum olan uşaqların müvafiq hüquq və maraqları hər bir halda məhkəmə tərəfindən təmin olunacaq və icra hakimiyyətləri nəzdində fəaliyyət göstərən Qəyyumluq və himayəçilik komissiyaları bu məsələlərdə həlledici yox, yalnız nəzarət və əlaqələndirici rol daşıyacaq.

6. Mülki icraatdan fərqli olaraq, cinayət mühakimə icraatında prokuror cinayət işi üzrə yetkinlik yaşına çatmayanın hüquqlarının müdafiəsi üçün mülki iddia verir və onu müdafiə edir. Bu halda prokuror yetkinlik yaşına çatmayanın pozulmuş hüquqlarının təminatçısı rolunda çıxış edir ki, bu da prokurorun qanun keşikçisi olaraq hüquqi statusuna tam uyğun gəlir. AR MPM-nə əsasən isə prokuror mülki prosesdə yalnız dövlət orqanlarının mənafeyinin müdafiəsi məqsədilə tərəf kimi iddia icraatında və ya xüsusi icraatda ərizəçi kimi iştirak edə bilər. Təklif olunur ki, MPM-də bu boşluq aradan qaldırısın və məsələ CPM-nə uyğun həll edilsin.

Nəzərə alsaq ki, maddi hüquq qabiliyyəti məzmununa görə mülki prosessual hüquq qabiliyyətindən fərqlidir, hesab edirik ki, AR MPM-nin 49.1-ci (mülki prosessual fəaliyyət qabiliyyəti) maddəsi dəqiqləşdirilməlidir. Bundan başqa MPM-nin 49.5-ci maddəsində yetkinlik yaşına çatmayanların yaş hədləri dəqiqləşdirilməli və onların qanuni nümayəndələrinin də mülki prosesdə iştirak etmə imkanı nəzərə alınmalıdır.

8. Mülki prosessual qanunvericilik məhkəmənin xüsusi icraat qaydasında baxdığı işlərdə yetkinlik yaşına çatmayanın iştirakını istisna etmədiyinə görə, 305-ci (məhkəmənin xüsusi icraat qaydasında baxdığı işlər) maddədə xüsusi icraat qaydasında baxılan işlərin siyahısı konkretləşdirilməlidir. Mülki icraat qaydasında baxılan işlərin siyahısında yalnız övladlığa götürmə haqqında ərizələr bilavasitə yetkinlik yaşına

çatmayanlara aiddir (mad.305.1.9). Bundan başqa 305.1.3-cü maddədə xüsusi icraat qaydasında baxılan işlərin siyahısına şəxsin məhdud fəaliyyət qabiliyyətli və ya fəaliyyət qabiliyyəti olmayan hesab edilməsi haqqında ərizələr daxildir ki, onlara da həmçinin 16 yaşı tamam olan yetkinlik yaşına çatmamış şəxsin tam fəaliyyət qabiliyyətli elan edilməsi (emansipasiya) haqqında və ya 14-dən 18-ə qədər yaşı olan yetkinlik yaşına çatmamış şəxsin öz qəlirləri üzrə müstəqil sərəncam vermə hüququnun məhdudlaşdırılması və ya alınması haqqında ərizələri daxil etmək olar. MPM-nin 33-cü fəslinin adında və maddələrinin (317-322) məzmununda yuxarıda təklif olunan əlavələr nəzərə alınmalıdır. Bununla əlaqədar MPM-nin 305.1, 317, 318, 319, 320, 321, 322 maddələrinə və 33-cü fəslin adına əlavə və dəyişikliklər etmək təklif olunur.

9. AR MPM-nə emansipasiya proseduru nəticəsində tam həcmdə fəaliyyət qabiliyyətli hesab edilən yetkinlik yaşına çatmayanların prosessual hüquqlarını xüsusi olaraq tənzimlənməsinə ehtiyac duyaraq üç maddədən ibarət: 322-1 (yetkinlik yaşına çatmayanın tam həcmdə fəaliyyət qabiliyyətli tanınması barəsində ərizə vermə); 322-2 (yetkinlik yaşına çatmayanın tam həcmdə fəaliyyət qabiliyyətli tanınması barədə ərizəyə baxılması); 322-3 (yetkinlik yaşına çatmayanın tam həcmdə fəaliyyət qabiliyyətli tanınması barədə ərizəsi üzrə məhkəmənin qərarı) yeni bir fəsil - Fəsil 33-1 (yetkinlik yaşına çatmayanın təm həcmdə fəaliyyət qabiliyyətli (emansipasiya) tanınması) əlavə edilməsi təklif olunur.

10. Ailə münasibətlərində əmlak hüquqlarına dair ən əsas, eyni zamanda da ən mübahisəli olan məsələ "uşaqlar valideynlərinin, valideynlər də uşaqların əmlakına mülkiyyət hüququna malik deyillər" və "birlikdə yaşayan valideynlər və uşaqlar qarşılıqlı razılıq əsasında bir-birinin əmlakından istifadə edə bilər və ya həmin əmlaka sahiblik edə bilərlər" (AM, mad.55.6) müddəalarıdır. İkinci müddəadan məntiqlə belə bir nəticəyə gəlirik ki, uşaqlar onlardan ayrı yaşayan valideynin əmlakından istifadə və ya əmlakına sahiblik edə bilməzlər. Eyni zamanda qanun uşaqların müxtəlif şəxsi (qeyri-əmlak) hüquqlarının tənzimi zamanı hər iki valideynin (həmçinin nikahı pozulan, ayrı yaşayan, uşaq nikahdan kənar münasibətlər nəticəsində anadan olan) tam bərabər hüquqlu olmasına istinad edir. Bundan belə bir nəticəyə gəlmək olar ki, valideynlər birlikdə yaşamayanda uşaqların əmlak hüquqları məhdudlaşır və diskriminasiyaya məruz qalır.

11. Mənzil Məcəlləsinin 30-cu (mülkiyyətçiyə məxsus yaşayış sahəsində onunla birlikdə yaşayan şəxslərin hüquq və vəzifələri) maddəsində boşluq və ziddiyətlər var. Belə ki, yetkinlik yaşına çatmayan uşaq yaşadığı mənzildən

istifadə etmək hüququna malikdir (mad.30.2). Lakin, yaşayış sahəsinin mülkiyyətçisi ilə ailə münasibətlərinə xitam verildikdə, keçmiş ailə üzvünün həmin yaşayış sahəsindən istifadə hüququ saxlanılmır (mad.30.4). Sual olunur: mənzilin mülkiyyətçisi olmayan valideynlə qaldıqda yetkinlik yaşına çatmayan uşaq mülkiyyətçi valideyn üçün də "keçmiş ailə üzvü" sayılır? Bu hal qanunverici tərəfindən tənzimlənməyib və təcrübədə valideynlərin nikahı pozulduqda yetkinlik yaşına çatmayan övladların mənzil hüquqları ciddi surətdə pozulur. Bu arada qanun keçmiş ailə üzvünün (göründüyü kimi, bu kateqoriyaya doğma övladlar da daxil olunur) mənzil problemlərini bir qədər "yüngülləşdirmək" istəyir: "keçmiş ailə üzvünün göstərilən mülkiyyətçiyə məxsus olan yaşayış sahəsindən müəyyən müddətə istifadə hüququ məhkəmənin qərarı əsasında saxlanıla bilər" (mad.30.4). Lakin, keçmiş ailə üzvünə mənzildən istifadə hüququnun müddətli olmaq şərti və ən əsası mənzil mülkiyyətçisinin istənilən vaxt öz hüququndan istifadə edib mənzili satması, faktiki olaraq keçmiş ailə üzvü hesab olunan yetkinlik yaşına çatmayanların məhkəmə tərəfindən verilmiş mənzildən istifadə hüququnu ləğv edir. Təklif olunur ki, hər bir halda yetkinlik yaşına catmayanın yaşadığı mənzil üzrə (fərqi yoxdur ki, o, özü mülkiyyətçidir, özəlləşdirilmiş mənzilin həmmülkiyyətçisidir, mülkiyyətçinin ailə üzvüdür və ya keçmiş ailə üzvüdür) əqdlər qəyyumluq və himayəçilik orqanlarının razılığı ilə bağlansın.

12. Avropa Şurasının Nazirlər Komitəsinin 2 mart 1978-ci il tarixli Hüquqi yardım və konsultasiyalar haqqında Qətnaməsinə əsaslanaraq, prosesdə qanuni nümayəndələrin, qəyyumluq və himayəcilik orqanının iştirakından asılı olmayaraq yetkinlik yaşına çatmayanların hüquq və maraqlarının məhkəmə müdafiəsini daha yüksək səviyyədə təmin etmək üçün hər yetkinlik yaşına çatmayan mülki proses içtirakçısına pulsuz hüquqi yardım göstərilmələdir. AR MPM-nə yeni 70-1 (Məhkəmə tərəfindən təyin edilən nümayəndəlik) maddəni əlavə etməyi təklif edirik.

13. AR-nın hüquq sisteminə mediasiya prosedurunun daxil edilməsini olduqca səmərəli sayaraq bu prosesi yaxın vaxtda gercəkləşdirmək üçün dissertasiyada konkret vəzifələr müəyyən olunur və mediasiya prosedurunun tədbiqi ilə əlaqədar AR MPM-nin 104.4.6; 167.1.5-1; 167-1; 188.3; 190 maddələrinə bir sıra əlavə və dəyişikliklər təklif edilir.

14. AR-da yetkinlik yaşına çatmayanların hüquq və maraqlarının daha effektiv müdafiəsi üçün yuvenal məhkəmələrin qurulması olduqca vacib məsələdir: yuvenal məhkəmələrin yaradılması əhalinin ən zəif təbəqəsi olan – uşaqların hüquq və maraqlarının keyfiyyətli və hərtərəfli məhkəmə müdafiəsinin əsas təminatı olacaq. AR-nın indiki hüquqtədbiqi təcrübəsində

prokurorluq və istintaq sistemində çox sayda ixtisaslaşdırılmış ibtidai istindaq orqanlarının (ədliyyə, gömrük, fövqəladə hallar, vergilər nazirliklərində və s.) mövcud olması məqbul sayılırsa, məhkəmə sistemində də yetkinlik yaşına çatmayanlar üzrə ixtisaslaşmış məhkəmənin yaradılması məntiqlidir.

15. Nəzərə alaraq ki, öz fəaliyyətinə görə uşaq ombudsmanı institutu uşaq hüquqlarının mövcud olan müdafiə forma və vasitələrini tamamlayır və Azərbaycanda yetkinlik yaşına çatmayanlar sayca əhalinin 3/1-ni təşkil edir, təklif olunur ki, yaxın zamanlarda ya uşaq hüquqlarının müdafiəsi üzrə ayrıca ombudsman, ya da fəaliyyətdə olan Ombudsman institutu daxilində uşaq hüquqları üzrə xüsusi bir struktur yaradılsın.

**Tədqiqatın nəzəri əhəmiyyəti** ilk növbədə qüvvədə olan AR-nın mülki prosessual qanunvericiliyinin təkmilləşdirilməsi üzrə təkliflərin işlənilib hazırlanmasından, yetkinlik yaşına çatmayanların hüquqlarının müdafiəsinin yeni prosedur formalarının əsaslandırılmasından ibarətdir. Tədqiqatın nəticələri mülki icraatda yetkinlik yaşına çatmayanların hüquqlarının ayrı-ayrı kateqoriyalı mülki işlərin baxılması prosesində müdafiəsinə yönələn gələcək elmi işlərin mənbələri kimi istifadə oluna bilər.

**Tədqiqatın təcrübi əhəmiyyəti** ondan ibarətdir ki, dissertasiyanın müddəaları mülki prosessual qanunvericiliyin təkmilləşdirilməsində, habelə "hüquqşünaslıq" ixtisası üzrə bakalavr tədris pilləsində "Mülki prosessual hüquq", "Beynəlxalq ümumi hüquq", "İnsan hüquqları" fənlərinin tədrisində istifadə oluna bilər. Dissertasiyanın müddəaları, nəticə və tövsiyələri "Mülki və təsərrüfat hüququ", "Beynəlxalq hüquq", "İnsan hüquqları" və "Avropa hüququ" ixtisaslaşmaları üzrə magistr tədris pilləsində də istifadə oluna bilər. Bunlardan əlavə, dissertasiyada işlənib hazırlanmış elmi tövsiyələr mülki işlər üzrə ədalət mühakiməsini həyata keçirən məhkəmə orqanlarının fəaliyyətinə öz müsbət tövhəsini verə bilər.

**Tədqiqat nəticələrinin aprobasiyası.** Dissertasiya işi BDU-nun Mülki proses və kommersiya hüququ kafedrasında yerinə yetirilmişdir. Aparılmış tədqiqatın ayrı-ayrı aspektləri və işin ümumi məzmunu BDU-nun Mülki proses və kommersiya hüququ, İnsan hüquqları və informasiya hüququ üzrə YUNESKO-nun, Mülki hüquq və Beynəlxalq ümumi hüquq kafedralarının iclaslarında müzakirə edilmiş, habelə hüquq elminin aktual məsələlərinə həsr olunan beynəlxalq və respublika səviyyəli elmi-praktiki konfranslara çıxarılmışdır. Dissertasiya işinin başlıca müddəa və nəticələri AR Prezidenti yanında AAK-nın tövsiyə etdiyi nəşrlərdə və Avstriya, Lüksemburq, RF-nın, Ukraynanın nüfuzlu nəşrlərində dərc olunmuşdur. Dissertasiyanın müddəaları

müəllif tərəfindən BDU-nun Hüquq fakültəsində mülki proses, sahibkarlıq hüququ fənlərinin tədrisi zamanı istifadə edilmişdir.

**Dissertasiya işinin strukturu və həcmi** tədqiqatın məqsədləri, vəzifələri və metodologiyası ilə şərtləndirilir. Dissertasiya giriş, on bir yarımfəslin daxil olduğu üç fəsil, nəticə, istifadə olunmuş ədəbiyyat siyahısı və əlavələrdən ibarətdir.

## İŞİN ƏSAS MƏZMUNU

**Dissertasiya işinin giriş hissəsində** mövzunun aktuallığı əsaslandırılır, onun elmi cəhətdən işlənmə dərəcəsi işıqlandırılır, tədqiqatın məqsəd və vəzifələri, metodoloji əsasları müəyyən edilir, iş üzrə gəlinmiş nəticələrin və irəli sürülmüş təkliflərin nəzəri yeniliyi və təcrübi əhəmiyyəti açıqlanır, görülmüş işin aprobasiyasının nəticələri təqdim olunur, müdafiəyə çıxarılan əsas müddəalar formalaşdırılır.

**I fəsil "Yetkinlik yaşına çatmayanların anlayışı və hüquqlarının müdafiəsinin əsasları"** adlanmaqla dörd yarımfəsli özündə birləşdirir.

**"Beynəlxalq hüquqda "uşaq" (yetkinlik yaşına çatmayan) anlayışının formalaşması"** adlanan birinci yarımfəsildə qeyd olunur ki, 1924-cü il tarixli Cenevrə Bəyannaməsində ilk dəfə olaraq bəyan olunmuşdur ki, uşaqların müdafiəsi yalnız onun ailəsinin və hətta hansısa bir ayrıca dövlətin vəzifəsi deyil: uşaqların hüquqları ümümi olaraq bütün bəşəriyyət tərəfindən müdafiə olunmalıdır. Lakin tarixdə ilk dəfə olaraq uşaq hüquqlarının müdafiəsinin prinsiplərini müəyyən edən 1924-cü il tarixli Cenevrə Bəyannaməsi eyni zamanda "uşaq" anlayışına aydınlıq gətirməmişdir. Bu anlayış BMT-nin 1989-cu il tarixli Uşaq hüquqları haqqında Konvensiyasında verilmişdir. Lakin, Uşaq hüquqları haqqında Konvensiyanın qəbulu prosesində və sonradan onun normalarını müxtəlif dövlətlərin qanunvericiliyinə implementasiyası zamanı ən mübahisəli və mürəkkəb məsələlərdən biri "uşaq" anlayışının izah edilməsi idi. Ənənəvi olaraq əksər dövlətlərin qanunvericiliyində "uşaq" anlayışı yaş meyarı ilə ölçülür, yəni müəyyən zaman ölçüsü var ki, onun müddətində şəxs uşaq sayılır. Qeyd etməliyik ki, hüququn əksər sahələrində "uşaq" termininin hüquqi anlayışının müəyyən edilməsi (yəni şəxsin hansı yaş ölçülərində uşaq sayılmasının) mühüm nəzəri və təcrübi əhəmiyyətə malikdir. Bu da onunla əlaqədardır ki, şəxs bu və digər hüquq münasibətlərinin iştrakçısı olaraq yetkinlik yaşına çatmayanın hüquqi statusundan həyatının yalnız müəyyən vaxt kəsiyində istifadə edə bilər. Burada isə "uşaq" anlayışının ən mürəkkəb məqamı onun həyatının başlanğıc və başa çatma anlarını müəyyən edilməsidir.

Dövlətlərin din, mədəniyyət məsələlərində, siyasi və hüquqi sistemlərində olan fərqlər beynəlxalq hüquqda birmənalı "uşaq" anlayışının hamılıqla qəbul edilməsinə imkan vermir.

Beynəlxalq hüquqda "uşaq" anlayışı yalnız insanın dünyaya gəldiyi andan yaranır. Lakin eyni zamanda beynəlxalq hüquq dövlətlərə hələ dünaya gəlməmiş körpəni (insan cismini) şəxs hesab etməyə heç bir qadaga qoymur. BMT-nin 1989-cu il tarixli Uşaq hüquqları haqqında Konvensiyasının qəbulu prosesində uşaq statusunun yuxarı yaş həddinin, yəni yetkinlik yaşına çatmasını şərtləndirən konkret yaşın müəyyən edilməsi də mübahisəsiz ötüşməmişdir. Belə ki, uşaq yetkinlik yaşına çatmaqla tamhüquqlu həddi-büluğa çatmış şəxs hesab olunur, onun hüquqlarının "uşaq statusuna" uyğun olan xüsusi mühafizəsi avtomatik itirilir və o, yetkinlik yaşına çatmış (tam həcmdə fəaliyyət qabiliyyətli) şəxsiyyətin hüquqi statusunu əldə edir. Universal səviyyədə 1989-cu ildə Uşaq hüquqları haqqında Konvensiyanın qəbulu əsas verir ki, beynəlxalq hüquqda 18 yaş həddini şəxsin uşaq qismində hüquqi müdafiəsinin bitməsinin son həddi hesab edək.

**"Azərbaycan Respublikasının qanunvericiliyində və müsəlman hüququnda yetkinlik yaşına çatmayanların anlayışı (müqayisəli təhlil)"** adlanan I fəslin ikinci yarımfəslində qeyd olunur ki, 19 may 1998-ci ildə Uşaq hüquqları haqqında AR-nın Qanunu qəbul olunandan sonra 1999-2000-ci illərdə əksər qanunvericiliklərin qəbul edilmə prosesi baş verdi. Onlardan bəzilərində - Ailə, Mülki, Cinayət məcəllələrində müvafiq ictimai münasibətlərin tənzimlənməsindən asılı olaraq yetkinlik yaşına çatmayanların anlayışı verildi. Yetkinlik yaşına çatmayanın daha dəqiq, beynəlxalq hüquqdakı anlayışı ilə tam üzləşən anlayışı AR-nın Ailə Məcəlləsinin 49-cu maddəsində verilir: "18 yaşına (yetkinlik yaşına) çatmayan və tam fəaliyyət qabiliyyəti əldə etməyən şəxslər uşaq hesab olunurlar". Bu anlayışdan belə nəticəyə gəlmək olar ki, birincisi, şəxs yetkinlik yaşa 18 yaşı tamam olanda çatır, ikincisi, şəxs 18 yaşa qədər qanunla müəyyən olunan hallarda tam həcmdə fəaliyyət qabiliyyətini əldə edirsə o, uşaq (yetkinlik yaşına çatmayan) sayılmır. Lakin ikinci halda ifadə olunmuş fikr yalnız mülki-hüquqi münasibətlərdə qəbul oluna bilər. Cinayət-hüquqi münasibətlərdə yetkinlik yaşına çatma yalnız və yalnız beynəlxalq hüquqla (1989-cu il Uşaq hüquqları haqqında Konvensiyanın 1-ci maddəsi) və AR-nın qanunları (1998-ci il Uşaq hüquqları haqqında Qanunun 1-ci maddəsi) ilə müəyyən edilmiş fiziki yaşa, yəni 18 yaşına

çatdıqda qəbul olunur. Dissertasiyanın bu hissəsində AR-nın müxtəlif hüquq sahələrində “yetkinlik yaşına çatmayan” anlayışı təhlil olunur.

Bundan əvvəlki yarımfəsildə BMT-nin Uşaq hüquqları haqqında Konvensiyasının qəbulu prosesində “uşaq” anlayışı ətrafında baş verən mübahisələrın şərhində Vatikanın katolik baxışları bu və digər dərəcədə tədqiq edildiyindən, islam dinində də uşaq (yetkinlik yaşına çatmayan) anlayışına münasibət və müsəlman mülki prosessual hüququn bəzi məsələləri dissertasiyanın bu hissəsində tədqiq edilir. Qeyd etməliyik ki, islamda şəxsin yetkinlik yaşına çatması böyük əhəmiyyət kəsb edir. Başqa hüquq sistemlərində olan kimi, müsəlman hüququnda da şəxs yetkinlik yaşına çatdıqda tam həcmdə fəaliyyət qabliyyətli sayılır və onun üzərinə müəyyən vəzifələr qoyur. Müsəlman hüququnda şəxsin yetkinlik yaşına çatması bir sıra xüsusiyyətlərlə fərqlənir. Bunlardan ən önəmlisi şəxsin orqanizmində cinsi mənsubiyyətindən asılı olaraq müəyyən fizioloji dəyişikliklərin baş verməsidir. Orta göstəricilərlə minimal halda qızlarda bu 9 yaş həddində, oğlanlarda isə 12 yaş həddində müəyyən olunur. Lakin fərqli səbəblərdən asılı olaraq bəzi qız və oğlanlarda cinsi yetkinlik əlamətləri orta göstəricilərdən xeyli gec baş verir, anormal hallarda isə heç baş verməyə də bilər. Bu halları nəzərə alaraq müsəlman hüququnda hələ orta əsrlərdə beynəlxalq hüquqa və bir çox müasir dövlətlərin qanunlarına uyğun gələn yetkinlik yaşına çatmanın yuxarı (maksimal) hədləri müəyyənləşdirilib: qızlar üçün – 17 yaş, oğlanlar üçün – 18 yaş. Qeyd etmək lazımdır ki, maksimal olaraq 17 və 18 yaş həddini (cinsi yetkinlik əlamətləri baş verməyibsə) yalnız xənəfi məzhəbinin alimləri müəyyən edir. Beləliklə, müasir dövlətlərin əksəriyyətində olduğu kimi, AR-sı da beynəlxalq hüquq normalarına uyğun olaraq qanunverici qaydada şəxsin yetkinlik yaşına çatmasının 18 yaş həddində müəyyənləşdirir. Müsəlman hüququnda isə bu məsələdə beynəlxalq standartlara yalnız hənəfi məzhəbinin mülahizələri cavab verir (xüsusi hallarda).

**“Beynəlxalq hüquqda və Azərbaycan Respublikasının qanunveriliyində yetkinlik yaşına çatmayanların hüquqlarını təmin edən mülki prosessual normaların sistemi”** adlanan I fəslin üçüncü yarımfəslində göstərilir ki, İnsan hüquqlarının mühüm tərkib hissəsi olan uşaq hüquqlarının müdafiəsi istiqamətində beynəlxalq hüquq və dövlətdaxili hüquq geniş normativ-hüquqi bazaya malikdir. Bu nöqteyi nəzərdən yetkinlik qaşına çatmayanların hüquqlarının AR-da müdafiəsi həm beynəlxalq, həm də dövlətdaxili hüquqi mənbələrlə təmin olunur. AR-da mülki məhkəmə icraatının əksər normaları MPM-də əks olunmuşdur. Lakin, mülki prosessual hüququnun mənbəyi kimi ailə, mülki, vergi, əmək, mənzil və s. maddi qanunvericiliklərin bir sıra normalarını da göstərmək olar. Bu sırada Ailə Məcəlləsi

demək olar ki, əsasən prosessual normalardan ibarətdir. Beləliklə mülki prosesdə yetkinlik yaşına çatmayanların hüquqlarının müdafiəsinin mənbəyi kimi müxtəlif kodifikasiya aktlarının normaları çıxış edir. Mülki prosessual hüququn digər mənbəyini Konstitusiya məhkəməsi haqqında AR-nın qanunu təşkil edir. Mülki prosessual hüququn mənbəyinə məhkəmə quruluşu, məhkəmənin səlahiyyətlərini və digər fəaliyyətlərini müəyyən edən qanunlar da daxildir. Qanunlardan başqa, mülki prosessual hüququn mənbəyinə Azərbaycan Respublikasının beynəlxalq müqavilələri də daxildir.

Yetkinlik yaşına çatmayanların hüquqlarının müdafiəsi sahəsində insan hüquqları üzrə beynəlxalq standartlara əsaslanan bir çox beynəlxalq konvensiyalar qəbul olunmuşdur. Onların sırasında 1989-cu il tarixli Uşaq hüquqları haqqında Konvensiyanın əsas əhəmiyyəti uşaq hüquqlarını hərtərəfli və geniş əhatə edən ilk beynəlxalq akt olmasındadır. 1989-cu il tarixli Uşaq hüquqları haqqında Konvensiyanın davamı olaraq 1996-cı ildə regional səviyyədə qəbul olunan Uşaq hüquqlarının həyata keçirilməsi haqqında Avropa Konvensiyasında isə əsasən mülki icraatda uşaq hüquqlarının və maraqlarının prosessual təminatı əks olunur. Belə ki, Avropa Konvensiyasında uşaqların prosessual hüquqlara malik olması müddəası onların ailə münasibətləri üzrə məhkəmə icraatında (valideynlər ayrı yaşadıqda uşaqların yaşayış yeri, uşaqların valideynləri və başqa qohumları ilə ünsiyyətdə olmaq haqqında mübahisələr və s.) iştirakını təmin edir. Mülki prosessual hüququn mənbələrinin sisteminə bir çox digər beynəlxalq müqavilələr də daxil edilə bilər: 1950-ci il tarixli İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında Avropa Konvensiyası; 1954-cü il tarixli Mülki prosessin müddəaları üzrə Haaha Konvensiyası; 1993-cü il tarixli Mülki, ailə və cinayət işləri üzrə hüquqi yardım və hüquqi münasibətlər haqqında MDB Konvensiyası və s. Beynəlxalq mülki prosessual hüquq normalarının AR-nın hüquq sistemində implementasiyasını zəruri edən amillərdən biri də respublikamızın Avropa Şurasının sənədlərinə, xüsusilə də İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında Konvensiyaya qoşulmasıdır. Müasir zamanda AR-nın mülki prosesual hüququn mənbələri kimi AR Konstitusiya Məhkəməsinin və İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin qərarları da qəbul edilir.

Beləliklə, AR-nın mülki prosessual hüququnun mənbələrinin sisteminə ənənəvi olaraq AR Konstitusiyası, konstitusion qanunlar, AR-nın tərəfdar çıxdığı beynəlxalq müqavilələr, AR-nın qanunları (ilk növbədə MPM və bir sıra maddi qanunvericiliklər), AR Konstitusiya məhkəməsinin və İnsan hüquqları üzrə Avropa Məhkəməsinin qərarları daxil edir.

**"Məhkəmə müdafiəsi yetkinlik yaşına çatmayanların hüquqlarının təminatı kimi"** adlanan I fəslin dördüncü yarımfəslində qeyd olunur ki, Konstitusiyada təsbit edilmiş insan hüquqlarını və azadlıqlarını qorumaq qanunvericilik, icra və məhkəmə hakimiyyəti orqanlarının borcu hesab edilmişdir. Sadalanan orqanların içərisində mülki hüquqların məhkəmədə müdafiə forması üstünlük təşkil edir. Yetkinlik yaşına çatmayanların hüquq və maraqlarının məhkəmə müdafiəsi prosessual müdafiə vasitəsi sayılır və bu müdafiə beynəlxalq standartlar (1948-ci il tarixli Ümumdünya İnsan hüquqları Bəyannaməsinin 7, 8 və 10-cu maddələri; 1950-ci il tarixli Avropa Konvensiyasının 14-cü maddəsi və s.) üzrə qurulmuşdur, yəni ədalətli, qərəssiz, müstəqil və qanun əsasında yaradılmış məhkəməyə müraciət əsasında.

AR AM-nin 1, 7, 51-ci, MM-nin 6-cı və s. maddələrinə görə yetkinlik yaşına çatmayanların mülki və ailə münasibətlərilə bağlı hüquq və maraqlarının məhkəmədə müdafiəsinə dövlət təminat verir. Qanun aktlarında göstərilən bu müddəalar tamamilə AR Konstitusiyasının 17-ci maddəsində qeyd olunan "uşaq hüquqlarının həyata keçirilməsinə dövlət nəzarət edir" fikrinə əsaslanır. Belə ki, bu sahədə qüvvədə olan qanunverici baza əhəmiyyətli dərəcədə genişlənib. Yetkinlik yaşına çatmayanların hüquq və maraqlarının təminatı sahəsində icra orqanlarının bir çox səlahiyyətləri (inzibati funksiyaları) aidiyyəti üzrə məhkəmələrə verilib. Məsələn, əvvəlki qanunvericilikdən fərqli olaraq, valideyn himayəsindən məhrum olan uşaqları ailə tərbiyəsinə (övladlığa) verilməsi, uşağın ailə münaqişələri nəticəsində ayrı yaşayan valideynlərin hansının yanında yaşamasının müəyyən edilməsi və yetkinlik yaşına çatmayanların s. hüquqlarının realizəsi məhkəmə baxışının predmeti olmuşdur.

Dissertasiyanın bu hissəsində müdafiəyə cıxarılan bir sıra müddəalar əsaslandılır. Nəticə olaraq MPM-nin 2 (mülki məhkəmə icraatının vəzifələri), 50 (tərəflər), 70-1 (məhkəmə tərəfindən təyin edilən nümayəndəlik), 305 (məhkəmənin xüsusi icraat qaydasında baxdığı işlər), MM-nin 28 (fiziki şəxsin mülki hüquq fəaliyyət qabiliyyəti), 33 (qəyyumluq və himayəçi) və s. maddələrinə dəyişiklər və əlavələr təklif olunur (dissertasiyaya əlavələr hissəsində onların məzmunları əks olunur).

**II fəsil "Mülki icraatda yetkinlik yaşına çatmayanların hüquqlarının müdafiəsinin xüsusiyyətləri"** adlanmaqla üç yarımfəsildən ibarətdir.

**"Yetkinlik yaşına çatmayanların mülki prosesdə iştirakının formaları"** adlanan II fəslin birinci yarımfəslində qeyd olunur ki, yetkinlik yaşına çatmayan mülki prosesin iştirakçısı kimi aşağıdakı şəkillərdə çıxış edə bilər: 1) müstəqil şəkildə tərəflərdən biri kimi (iddiaçı, cavabdeh və ya

ərizəçi qismində); 2) qanuni nümayəndəsi tərəfindən hüquqları, azadlıqları və maraqları müdafiə edildikdə tərəf kimi; 3) şahid və ya üçüncü şəxs kimi. Yetkinlik yaşına çatmayan mülki prosesin iştirakçısı kimi, MPM-nin 47.2-ci (işdə iştirak edən şəxslərin hüquq və vəzifələri) maddəsində bütün qeyd edilən prosessual hüquq və vəzifələrin daşıyıcısı hesab olunur. MPM-nin 49.1-ci maddəsində müəyyən olunur ki, fiziki şəxsdə tam həcmdə mülki prosessual fəaliyyət qabiliyyəti yalnız o, yetkinlik yaşına çatanda yaranır. Bu maddənin qalan hissələrini tədqiq edərkən belə bir nəticəyə gəlmək olar ki, qanunverici yetkinlik yaşına çatmayanların onların konkret yaş həddindən (14-dək, 14-18, 16-18) və hüquqi vəziyyətindən (tam fəaliyyət qabiliyyətli elan edildiyi halda -emansipasiya proseduru) asılı olaraq mülki prosessual fəaliyyət qabiliyyətinin həcmini fərqləndirir. 16-dan 18-ə qədər yaş həddində olan yetkinlik yaşına çatmayan tam fəaliyyət qabiliyyətli elan edildiyi halda (emansipasiya) o, məhkəmədə şəxsən öz hüquq və vəzifələrini həyata keçirə bilər (mad.49.2). 14-dən 18 yaşınadək yetkinlik yaşına çatmayanların hüquq, azadlıq və qanunla qorunan mənafeləri məhkəmədə onların qanuni nümayəndələri tərəfindən qorunur, lakin məhkəmə bu yaşda olan yetkinlik yaşına çatmayanları da prosesdə iştirak etməyə cəlb edə bilər (mad.49.3). 14 yaşa qədər yaş həddində olan yetkinlik yaşına çatmayanların hüquq, azadlıq və qanunla qorunan mənafelərini məhkəmədə onların qanuni nümayəndələri qoruyurlar (mad.49.3).

Beləliklə, yalnız 16-18 yaş həddində olan və tam fəaliyyət qabiliyyətli elan edilən yetkinlik yaşına çatmayanlar məhkəmədə öz hüquq, azadlıq və qanunla qorunan mənafelərini müstəqil şəkildə müdafiə edə bilərlər. Bundan başqa yetkinlik yaşına çatmayanlara qanunla nəzərdə tutulan hallarda mülki, ailə, əmək, inzibati və digər hüquq münasibətlərindən əmələ gələn və alınmış əmək haqqı və ya sahibkarlıq fəaliyyətindən əldə edilən gəlirə sərəncam verməklə əlaqədar olan əqdlər üzrə öz hüquq, azadlıq və qanunla qorunan mənafelərini məhkəmədə müdafiə hüququ şəxsən özlərinə verilir (mad.49.5). Bu müddəada hüquq və maraqlarının müdafiəsi məqsədilə qanun əsasında məhkəməyə müstəqil müraciət hüququ olan 14-dən 18 yaşına qədər yetkinlik yaşına çatmayanlar nəzərdə tutulur. Hesab edirik ki, məhkəmə öz təşəbbüsü ilə yetkinlik yaşına çatmayanın qanuni nümayəndəsini də mülki prossesdə iştirak etməyə cəlb edə bilər və MPM-nin 49.5-ci maddəsinə bu müddəa əlavə olunmalıdır. Bu halda da qanunverici mütləq qaydada 14-dən 18 yaş həddində olan yetkinlik yaşına çatmayanların prosessual statusunu dəqiq müəyyən etməlidir. Mülki prosessual hüquqda iştirakçıların prosessual vəziyyəti dəqiq müəyyən edilmədiyinə

görə mübahisəli bir sual yaranır: iddia icraatında tərəf qismində kimi tanımaq olar - yetkinlik yaşına çatmayanları və ya onların qanuni nümayəndələrini? Bizim fikrimizcə, tərəf qismində yetkinlik yaşına çatmayanları tanımaq olar, qanuni nümayəndələr isə iddiaya və proses zamanı yaranan məsələlərə öz münasibətlərini bildirə bilərlər.

AR MPM-də yetkinlik yaşına çatmayanların mülki-prosessual hüquq və vəzifələri onların məhkəmə icraatında iştirakının səviyyəsindən asılı olaraq kifayət qədər tənzimlənib, lakin bəzi hallarda onların mülki-prosessual statusu dəqiqləşdirilməlidir. Qanunvericiliyi təkmilləşdirmək məqsədilə MPM-ə dəyişikliklər (mad.49.5, 305.1, fəsil 33-ün adının dəqiqləşdirilməsi, mad.317-322 və s.) və əlavələr (yeni fəsil 33-1) təklif olunur.

**“Mülki prosesdə yetkinlik yaşına çatmayanların əmlak hüquqlarının müdafiəsi”** adlanan II fəslin ikinci yarımfəslində qeyd olunur ki, yetkinlik yaşına çatmayanların əmlak hüquqlarının məhkəmə müdafiəsi onların şəxsi (qeyri-əmlak) hüquqları ilə müqayisədə beynəlxalq hüquq və AR-nın müki prosessual hüquq elmlərində daha az tədqiq olunan mövzudur. Beynəlxalq hüquqda yetkinlik yaşına çatmayanların əmlak hüquqları yalnız ümumi baxımdan tənzimlənir. AR-nın qüvvədə olan qanunvericilik bazasında yetkinlik yaşına çatmayanlar hüquq subyekti olaraq müəyyən əmlak hüquqlarına malikdirlər və bu hüquqlar müxtəlif səviyyələrdə tənzimlənir. AR Konstitusiyasına və 1998-ci il tarixli Uşaq hüquqları haqqında AR Qanuna əsaslanan yetkinlik yaşına çatmayanların əmlak hüquqlarının müdafiəsi kompleks xarakter daşıyır və birbaşa ailə, mənzil, əmək, mülki, mülki-prosessual qanunvericiliklərlə tənzimlənir.

Ailə münasibətlərində əmlak hüquqlarına dair ən əsas, eyni zamanda da ən mübahisəli, olan məsələ “uşaqlar valideynlərinin, valideynlər də uşaqların əmlakına mülkiyyət hüququna malik deyillər” və “birlikdə yaşayan valideynlər və uşaqlar qarşılıqlı razılıq əsasında bir-birinin əmlakından istifadə edə bilər və ya həmin əmlaka sahiblik edə bilərlər” müddəalarıdır. İkinci müddəadan məntiqlə belə bir nəticə gəlir ki, uşaqlar onlardan ayrı yaşayan valideyinin əmlakından istifadə və ya əmlakına sahiblik edə bilməz. Bundan da belə bir nəticəyə gəlmək olar ki, valideynlər birlikdə yaşamayanda uşaqların əmlak hüquqları məhdudlaşır və bu halda uşaq birgə yaşayan valideynlə avtomatik olaraq “keçmiş ailə üzvü” statusuna keçirilir və bununla onun hüquqları diskriminasiya olunur. Dissertasiyada bu problemin həlli üçün AM-nin 55.6-cı maddəsinin yeni redaksiyası təklif edilir.

MM-də uşaqların əmlak hüquqlarına bir neçə maddə həsr olunub. Yetkinlik yaşına çatmayanların əmlaka mülkiyyət hüququ onların fəaliyyət qabiliyyətinin həcmindən asılıdır. Fəaliyyət qabiliyyətinin həcmi isə yetkinlik yaşına çatmayanların konkret yaş həddindən asılıdır (mad.28). Mülkiyyət hüququ üzrə yetkinlik yaşına çatmayan azad mülki-hüquqi dövriyyədən çıxarılmayan istənilən əmlaka sahib ola bilərlər. Bu və digər əmlaka mülkiyyət hüququ onlarda vərəsəlik və ya bağışlanma qaydasında, əmək gəlirləri hesabına yarana bilər. Valideyn (və ya onu əvəzləyən şəxs tərəfindən) alınan aliment, təqaüd, müavinat vəsaitləri uşağın mülkiyyəti sayılır. Yetkinlik yaşına çatmayanların öz mülkiyyətində olan əmlak üzrə əqdlərin bağlanması onların hansı həcmdə fəaliyyət qabiliyyətinə malik olmasından asılıdır. Fikrimizcə azyaşlının (14 yaşına qədər yetkinlik yaşına çatmayan) əmlakının qorunması məqsədilə, bizim qanunvericilikdə (MM, fəsil 32) azyaşlının əmlakının bağışlanmasına birbaşa qadağa qoymaq lazımdır.

Ciddi problemlərdən biri yetkinlik yaşına çatmayanların mənzil hüquqlarının qorunmaması ilə əlaqədardır. AR mənzil qanunvericiliyi yetkinlik yaşına çatmayanların yalnız bir qisminin (ekstremal şəraitdə olanların) mənzil hüquqi münasibətlərini tənzim edir, yetkinlik yaşına çatmayanların qalan qisminin mənzil-hüquqi münasibətləri AR-nın ailə və mülki qanunvericiliklərinin normaları ilə tənzim olunur. Uşaqların mənzil hüquqları valideynlərin nikahı pozulduqda nəzərə alınmır və hətta müəyyən hallarda o, "keçmiş ailə üzvü" sayılır.

Beləliklə yetkinlik yaşına çatmayanların müxtəlif hüquqi münasibətlərdə (ailə, əmək, mənzil, mülki və s.) əmlak hüquq və maraqlarının məhkəmə icraatında qorunmasının qaydası, onların mülki prosesdə fəaliyyət qabiliyyətinin hansı səviyyədə olmasından asılıdır. Göstərilən məsələ hüquq elmində mövcud olan problemlərdən azad deyildir.

**"Mülki prosesdə yetkinlik yaşına çatmayanların şəxsi (qeyri-əmlak) hüquqlarının təminati"** adlanan II fəslin üçüncü yarımfəslində yetkinlik yaşına çatmayanların şəxsi (qeyri-əmlak) hüquqlarına həsr olunub. Uşağın ailədə yaşamaq və tərbiyə olunmaq hüququ (AM, mad.49) geniş anlayış olaraq valideynlərlə birgə yaşamaq hüququndan başqa öz valideynlərini tanımaq hüququnu, valideynlərdən qayğı görmək hüququnu, öz valideynləri tərəfindən tərbiyə almaq hüququnu, uşağın maraqlarının qorunması və hərtərəfli inkişafı hüququnu, onun ləyaqətinə hörmət olunması hüququnu da əhatə edir. Uşağın ailədə yaşamaq və tərbiyə olunmaq hüququ istisna hallarda pozula bilər: uşaqların valideynlərlə birgə yaşamağı birincilərin maraqlarına zidd olan hallarda, məsələn, valideynlər valideynlik hüquqlarından məhrum olunduqda və ya bu hüquqlar qismən

məhdudlaşdırıldıqda (AM, mad.49.4). Bu məsələ uşağın maraqlarını tam təmin etmək üçün yalnız məhkəmə icraatında həllini tapa bilər.

AM-nin 50-ci maddəsində uşağın hər iki tərəfdən (ana və ata) qohumları ilə ünsiyyətdə olmaq hüququ müəyyən edilir və bu halda qohumların yalnız bir qismi, daha yaxınları - babalar, nənələr, qardaşlar, bacılar dəqiq qeyd edilir. Mətndə işlədilən "başqa qohumlar" ifadəsi belə bir nəticəyə gətirir ki, uşağın hər iki tərəfdən olan daha uzaq qohumları ilə ünsiyyət hüququ məhkəmə tərəfindən tanına bilinər. Valideynləri uşaqla ünsiyyətdə olmaq hüququndan məhrum etmə və təbii ki, bunun əksi olaraq uşağı valideynlərlə ünsiyyətdə olmaq hüququndan məhrum etmə qanunla xüsusi hallarda müəyyən olunur. Məhkəmə qaydasında - valideynlik hüquqlarından məhrumetmə və ya valideynlik hüquqlarının məhdudlaşdırılması üzrə məhkəmə icraatında (AM, mad.65 və 68). İnzibati qaydada — uşağın sağlamlığı və ya həyatı birbaşa təhlükədə olduqda, müvafiq icra hakimiyyəti orqanı uşağı valideynlərdən (onlardan birindən) və ya onu qəyyumluğa (himayəyə) götürmüş şəxslərdən təcili olaraq aldıqda (AM, mad.72). Uşaq öz hüquqlarını qorumaq üçün müvafiq icra hakimiyyəti orqanlarına, 14 yaşına çatdıqda isə məhkəməyə müraciət etmək hüququna malikdir.

BMT-nin Uşaq hüquqları konvensiyasının müddəalarına uyğun olaraq, AM-nin 52-ci maddəsində uşağın öz fikrini bildirmək hüququ təsbit olunub. Uşaq məhkəmə istintaqı və inzibati araşdırmaların gedişində dinlənilmək hüququna malikdir və 10 yaşına çatmış uşağın fikri mütləq nəzərə alınmalıdır (onun maraqlarına zidd olan hallar istisna olunmaqla) və qanunla müəyyən olunmuş hallarda məhkəmə və ya qəyyumluq və himayə orqanı yalnız 10 yaşına çatmış uşağın razılığı ilə qərar qəbul edə bilər. AR qanunvericisi tərəfindən uşağın öz fikrini bildirmək hüququnu "10 yaş" həddi ilə mütləq sayılması BMT-nin Uşaq hüquqları konvensiyasının 12-ci maddəsinə tam cavab verir.

Beləliklə, yetkinlik yaşına çatmayanların şəxsi (qeyri-əmlak) hüquqlarının məhkəmə müdafiəsinin tənzimlənməsi uşaqların hüquqları sahəsində qəbul olunan beynəlxalq standartlara cavab verir. Baxmayaraq ki, 1996-cı il tarixli Uşaq hüquqlarının həyata keçirilməsi üzrə Avropa Konvensiyası hələ də AR-nın qanunverici orqanı tərəfindən ratifikasiya olunmayıb, yetkinlik yaşına çatmayanların prosessual hüquqları kifayət qədər AR-nın mövcud qanunvericiliyində təmin olunub.

**III fəsil “Mülki prosesdə yetkinlik yaşına çatmayanların hüquqlarının müdafiəsi üzrə beynəlxalq standartlara uyğun gələcək inkişaf perspektivləri”** adlanmaqla dörd yarımfəsli özündə birləşdirir.

**“Mülki icraatda Avropa standartları”** adlanan III fəslin birinci yarımfəslində qeyd olunur ki, Azərbaycan Respublikası Avropa Şurasına daxil olan hər bir üzv kimi Avropa Konvensiyasının və onun Protokollarının İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin qərarları ilə yaradılan presedent hüququndan irəli gələn mühüm müddəaları öz qanunvericiliyinə daxil etmək öhdəliyini üzərinə götürübdür. Yetkinlik yaşına çatmayanların hüquqlarının və maraqlarının məhkəmə müdafiəsini daha yüksək səviyyədə təmin etmək üçün təklif olunur ki, hər yetkinlik yaşına çatmayan mülki proses içtirakçısına prosesdə onun qanuni nümayəndələrinin, qəyyumluq və himayəcilik orqanının iştirakından asılı olmayaraq pulsuz hüquqi yardım göstərilsin. Bu yetkinlik yaşına çatmayanların çəkişmə prosesində keçirilən müdafiəsinə dəyərli zəmanət ola bilər. Fikrimcə, hüquqi yardım büdcə hesabına ödənilsə bu bir daha uşaqların hüquqlarının dövlət tərəfindən hərtərəfli müdafiəsinin sübutu olacaq və ümumiyyətlə Avropa Şurasının Nazirlər Komitəsinin 2 mart 1978-ci il tarixli Hüquqi yardım və konsultasiyalar haqqında Qətnaməsinin tələblərinə cavab verəcək. Qeyd etməliyik ki, Azərbaycan Respublikasında Avropa Şurasının mülki icraat sahəsində hüquqi təfəkkürün, qanunverici fəaliyyətin və hüququn tətbiq olunması üzrə təcrübənin mövcud standartları ilə tam uyğun vəziyyətə salınması prosesi davam edir. Ədalət mühakiməsinin həyata keçirilməsi zamanı İnsan hüquqlarının və əsas azadlıqlarının müdafiəsi haqqında Avropa Konvensiyasının presedentlərinin düzgün və vahid qaydada tətbiqinin təmini məqsədilə AR Ali Məhkəməsinin Plenumu 2006-cı il 30 mart tarixində xüsusi olaraq 5 saylı qərar qəbul etmişdir. AR MPM-nin 16-ci maddəsinə əsasən dövlətdaxili hüquqi müdafiə vasitələri bitərsə, insan hüquqlarının və azadlıqlarının müdafiəsi üçün beynəlxalq məhkəmələrə müraciət edə bilərlər. Yetkinlik yaşına çatmayanlar da *“ratione persona”* olaraq İnsan hüquqları üzrə Avropa Məhkəməsinə müraciətetmə hüququna malikdilər. Yetkinlik yaşına çatmayanların hüquqlarının Avropa Məhkəməsində müdafiəsi adətən Avropa Konvensiyasının 3, 6, 8, 9 və 14 maddələrinin pozulması ilə əlaqədar olur. Beynəlxalq məhkəmədə işə baxılarkən, bir çox sənədlərdə qərarlanmış Avropa standartları ilə yanaşı BMT-nin 1989-cu il tarixli Uşaq hüquqları haqqında Konvensiyaya da istinad olunur. Əksər hallarda Avropa Məhkəməsinə yetkinlik yaşına çatmayanların hüquqlarının müdafiəsi ilə əlaqədar onların valideynləri müraciət edir.

Beləliklə, Azərbaycanda müasir mülki prosessual hüququn tədqiqi göstərir ki, mövcüd Avropa standartları məhkəmə icraatının əsas müddəalarında öz əksini tapıb.

III fəslin ikinci yarımfəsli **“Mülki prosesdə mediasiya prosedurunun tətbiqi problemləri”** adlanır. Beynəlxalq hüququn vasitəsi kimi mediasiya dövlətlər arasında mövcud olan konfliktlərin həllində qədimdən istifadə olunurdu. Hüquqda mediasiya (vasitəçilik) — mübahisələrin neytral, qərəssiz və bu mübahisədə maraqı olmayan üçüncü tərəfin (mediatorun) iştitakı ilə alternativ tənzimlənmə üsuludur. Beynəlxalq təcrübədə mediasiya proseduru həm məhkəməyə müraciət edilməmiş, həm də məhkəmə baxışına verilmiş mülki işlər üzrə mübahisələrin (daha çox iqtisadi, əmlak məsələləri üzrə yaranan) həlli üçün başlaya bilər. Bizim fikrimizcə, ailə münaqişələrindən yaranan mübahisələrin həlli mediasiya proseduru ilə daha məqbul hesab edilə bilər. Bu həm məhkəməyə müraciət edilməmiş, həm də məhkəmə prosesində baş verə bilər: mülki işə baxan hakim tərəflərə mediatorun köməkliyinə müraciət etməyi məsləhət verə bilər. Müasir zamanda xarici dövlətlərdə mediasiya proseduru geniş istifadə olunur. Beləki, ABŞ-da 2500 qanunun əsasında 2001-ci ildə Mediasiya haqqında vahid Qanun (*Uniform Mediation Act*) qəbul olunub, RF-da isə 1 yanvar 2011-ci il tarixdən Mediatorun iştiraki ilə mübahisələrin tənzimlənməsinin alternativ proseduru (mediasiya proseduru) haqqında Qanun qüvvəyə minib.

Azərbaycanda mediasiya proseduru ailə, əmək, əmlak mübahisələrinin həllində məhkəmə icraatına alternativ olaraq tətbiq edilməlidir. Xüsusən mülki işlər üzrə mediasiyaya müraciət yetkinlik yaşına çatmayanların psixotravmik hallardan, etik problemlərdən qorunmaq məqsədini də daşımalıdır. Ailə mübahisəsinin məhkəmə icraatında hakim tərəfindən qət etmiş qərarla həlli hər bir halda tərəflər arasında münaqişənin daha sərtləşdirilməsi və gələcək münasibətlərin tamamən itirilməsilə nəticələnəcək. Düşmən mövqedə olan valideynlərin münasibətləri yetkinlik yaşına çatmayanların psixiki durumuna, tərbiyəsinə və həyat tərzinə yalnız mənfi təsir edə bilər. Mediasiya prosedurunda həll olunun mübahisələr üzrə yekun qərar tərəflərin razılığı ilə qəbul edilir və bu halda yetkinlik yaşına çatmayanların maraqları daha dolğun nəzərə alınır və valideynlər uşağlarının gələcək tərbiyə və sosial-mənəviyyət məsələlərində əməkdaşlıq (partnyor) münasibətlərində qala bilirlər. Azərbaycanda mediasiya prosedurunun tətbiqinə şübhə ilə yanaşanlara isə bu institutun bizim xalq arasında əsrlərlə müvəffəqiyyətlə tədbiq olunması nümünəsi var – müxtəlif

səpkidə olan münaqişələrin el arasından seçilmiş hörmətli və böyük həyat təcrübəsi olan ağsaqqaların köməyi ilə tənzimlənməsi.

Son olaraq qeyd edək ki, AR-da mülki üşlər üzrə mübahisələrin həllində mediasiya institutunun tətbiqi mütləq olaraq mülki prosesin qanunvericiliyində öz əksini tapmalıdır. Öz tərəfimizdən MPM-yə mediasiya institutunu tənzimləyən yeni 167-1 (mediasiya proseduru) maddəsini əlavə, 167 (işi məhkəmədə baxılmağa hazırlamaq üzrə hakimin hərəkətləri), 188 (işə baxılmasının təxirə salınması), 104 (şahid ifadələri), 190-cı (işə mahiyyəti üzrə baxılmağa başlanması) maddələrdə dəyişiklilər etməyi təklif edirik. AR-nın hüquq sistemində mediasiya prosedurunun tətbiqi mülki prosessual qanunvericilikdən başqa digər qanunvericiliklərin müddəalarına müvafiq düzəlişlərin edilməsini şərtləndirəcək. Məsələn, MM-nin 379-cu maddəsində (iddia müddəti axımının dayandırılması) və s.

**"Azərbaycan Respublikasında yuvenal məhkəmələrin yaradılmasının zərurəti"** adlanan III fəslin üçüncü yarımfəslində qeyd olunur ki, hüquq ədəbiyyatında yuvenal ədliyyə sözün geniş və dar mənasında fərqləndirilir. Dar mənada – o, ixtisaslaşdirilmış məhkəmələrdir, geniş mənada isə - yetkinlik yaşına çatmayanların hüquqları, azadlıqları və qanuni maraqlarını təmin edən və dövlət və qeyri-dövlət orqanları, təşkilatlar və birliklərin sistemi tərəfindən realizə olunan hüquqi mexanizmlərin (normativ-hüquqi, tibbi-sosial, psixoloji-pedaqoji və bərpaedici prosedur və proqramlar) məcmuəsidir. Qeyd edək ki, biz yuvenal ədliyyənin geniş mənada izahının tərəfdarlarıyıq. Eyni zamanda da o, fikirlə razılaşırıq ki, yuvenal ədliyyənin əsas mərkəzi dayağı məhz öz kompetensiyası çərçivəsində yetkinlik yaşına çatmayanlar barəsində cinayət, mülki və inzibati işlərə baxan yuvenal məhkəmədir. Yuvenal ədliyyənin əsas prisiplərindən (fərdiləşdirmə və humanizm) çıxış edərək Azərbaycanda yuvenal məhkəmələrin qurulması yetkinlik yaşına çatmayanların hüquq və maraqlarının daha effektiv müdafiəsi ilə nəticələnəcək. Bu da ondan irəli gələcək ki, ümumi yurisdiksiyalı məhkəmələrlə müqayisədə yuvenal məhkəmədə mülki prosesin əsas iştirakçısı yetkinlik yaşına çatmayanlar özləri olacaqlar. Yuvenal məhkəmələr ümumi məhkəmələr (rayon, şəhər) kimi ərazi prinsipi üzrə qurulmalıdılar.

Yuvenal məhkəmələrin təşkil olunmasını şərtləndirmək üçün, bu xüsusiləşdirilmiş məhkəmələrin yaranmasına tarixi baxış, onların təşkili üzrə təsnifatı və postsovet məkanında bəzi dövlətlərdə yeni qurulan yuvenal məhkəmələrin təşkilati məsələləri tədqiq olunub. Belə bir nəticəyə gəlinib ki, beynəlxalq standartların tələbinə daha çox cavab verən yuvenal ədliyyə (sözün geniş mənasında) məhz Qazaxstanda gurulub və inkişaf edir.

Fikrimizcə, bu ölkənin yuvenal məhkəmələrin təşkili və fəaliyyəti haqqında təcrübəsindən Azərbaycan Respublikası da gələcəkdə istifadə edə bilər.

III fəslin dördüncü yarımfəsli **“Uşaq hüquqları üzrə müvəkkil (Uşaq ombudsmanı) institutunun təsisatı”** adlanır. Ümumiyyətlə uşaq ombudsmanı institutu dünya təcrübəsində nisbətən yeni bir qurumdur. İlk dəfə uşaq ombudsmanı vəzifəsi 6 mart 1981-ci il tarixli Uşaq ombudsmanı Aktı əsasında (“Relating to the ombudsman for children”) Norvecdə təsis olunub. Azərbaycan Respublikasının uşaqların hüquqlarının müdafiəsi üzrə müəyyən müsbət təcrübəsi və müxtəlif sahələrdə yetkin qanunverici bazası vardır. Lakin Azərbaycanda xüsusi olaraq uşaq hüquqlarının müdafiəsi üzrə nə ayrıca ombudsman institutu, nə də ombudsman institutunun daxilində xüsusi strukrur yaradılmayıbdır. AR İnsan Hüquqları üzrə müvəkkilinin rəsmi saytında da onun fəaliyyətinin əsas istiqamətlərində uşaqların hüquq və maraqlarının müdafiəsi xüsusi olaraq vurğulanmır və onlar yalnız insan hüquqlarının ümumi kontekstində nəzərə alınır. Beynəlxalq təşkilatlar müxtəlif səviyyələrdə keçirilən tədbirlərdə Azərbaycanda fəaliyyətdə olan İnsan hüquqları üzrə müvəkkil institutu ilə bərabər həm də xüsusi olaraq Uşaq hüquqları üzrə müvəkkil institutunun yaranmasını tövsiyə ediblər. Belə ki, 2014-cü ildə Bakıda keçirilən Ombudsmanların beynəlxalq konfransında BMT-nin Azərbaycanda Uşaq fondunun (*UNİCEF*) nümayəndəliyinin başçısı Mark Gervard bizim ölkədə ayrıca olaraq Uşaq ombudsmanı institutunun yaradılmasını dəsdəkləmişdir. Hesab edirik ki, öz fəaliyyətinə görə Uşaq ombudsmanı institutu uşaq hüquqları üzrə mövcud olan müdafiə forma və vasitələrini tamamlayır və sayca əhalisinin 3/1-ni yetkinlik yaşına çatmayanlar təşkil edən Azərbaycanda Uşaq ombudsmanı institutunun yaradılması olduqca aktual məsələdir.

Dissertasiya işinin **nəticə** hissəsində tədqiqata yekun vurulur, Azərbaycan Respublikasında yetkinlik yaşına çatmayanların hüquqlarının müdafiəsini beynəlxalq standartların yüksək səviyyəsində təmini məqsədilə qüvvədə olan mülki prosessual qanunvericiliyinə təklif olunan bir sıra müddəa və nəticələr ümumiləşdirilir.

Dissertasiyaya **əlavələrdə** tədqiqat materialları üzrə tərtib edilmiş cədvəllər və AR MPM, AM və MM-yə təklif olunan dəyişikliklər və əlavələr qanunverici texnikasına uyğun olaraq verilir.

**Dissertasiyanın mövzusu ilə bağlı müəllifin aşağıdakı elmi əsərləri dərc olunmuşdur:**

1. Azərbaycan Respublikasının Beynəlxalq Valyuta Fondu ilə əməkdaşlığının əsas istiqamətləri. Məqalə, Hüquqi dövlət və qanun. Bakı, 2012, № 5, s.32-35

2. Sahibkarlıq hüququnun anlayışı haqqında. Məqalə, Hüquqi dövlət və qanun. Bakı, 2012, № 9, s.31-34

3. О понятии международного гражданского процесса. Tezis, İnsan hüquqları Bəyannaməsinin 64-illiyinə həsr olunmuş "Qlobalaşma dövründə insan hüquqları və milli hüquq sistemləri" adlı beynəlxalq elmi-praktiki konfransın materialları. II cild, Bakı, BDU, 2013, s.701-703

4. Особенности правового статуса иностранцев в гражданском судопроизводстве Азербайджанской Республики. Məqalə, Polis Akademiyasının Elmi Xəbərləri. Bakı, 2013, № 2, s.73-78

5. О защите прав и свобод человека в гражданском процессуальном праве Азербайджанской Республики. Məqalə, Austrian Journal of Humanities and Social Sciences. 2014, № 10, s.357-360.

6. Mülki proses sistemində iddia icraatı. Tezis, BDU-nun 95 illik yubileyinə həsr edilmiş Hüquq fakültəsinin gənc alimlərin və magistrantların "Qloballaşma dövrü: beynəlxalq standartlar və Azərbaycan qanunvericiliyinin müasir problemləri" mövzusunda elmi-praktiki konfransın materialları, Bakı, 2015, s.293-295

7. О понятии "несовершеннолетние" и защите их прав в гражданском судопроизводстве Азербайджанской Республики. Məqalə, Право UA-Law UA. Kiev, 2015, № 4, s.150-157

8. Mülkiyyət hüququnun müdafiəsinin bəzi problemləri. Tezis, Azərbaycan xalqının ümummilli lideri H.Əliyevin anadan olmasinin 92-ci ildönümünə həsr olunmuş "Heydər Əliyevin Azərbaycan Respublikasının hüquq elminin və təhsilinin inkişafında rolu" mövzusunda Beynəlxalq elmi-praktiki konfransın materiallari. Bakı, 5 may 2015, s.510-514

9. Yetkinlik yaşına çatmayanların hüquqlarının beynəlxalq-hüquqi müdafiəsi. Məqalə, Qanun. Bakı, 2015, № 12, s.19-25

10. Mülki prosesdə yetkinlik yaşına çatmayanların hüquqlarının müdafiəsinin mənbələrinin sistemi. Məqalə, Nəqliyyat hüququ. Bakı, 2015, № 4, s.113-121

11. Защита прав несовершеннолетних в гражданском процессе: международные стандарты. Məqalə, European Reforms Bulletin: Scientific Peer-Reviewed Journal. Luxembourg, 2015, № 2, s.9-15

12.Azərbaycan Respublikasında yuvenal məhkəmələrin yaradılmasının zərurəti haqqında. Məqalə, Beynəlxalq hüquq və inteqrasiya məsələləri. Bakı, 2015, № 3, s.5-11

13.Mülki icraatda Avropa standartları. Məqalə, Bakı Universitetinin Xəbərləri. Sosial-siyasi seriyası. Bakı, 2015, № 3, s.61-71

14.Mülki prosesdə yetkinlik yaşına çatmayanların şəxsi (qeyri-əmlak) hüquqlarının təminatı. Məqalə, Qanun. Bakı, 2016, № 2, s.89-95

15.Mediasiya mübahisələrin effektiv həlli üsulu kimi və onun Azərbaycanda reallaşdırılması perspektivləri. Məqalə, Qanunçuluq. Bakı, 2016, № 4, s.36-39

16.Müsəlman hüququnda yetkinlik yaşına çatmayanların anlayışı. Tezis, Doktorantların və gənc tədqiqatçıların XX Respublika elmi konfransının materialları. II cild. Bakı, 24-25 may 2016, s.219-222

17.Uşaq hüquqları üzrə müvəkkil (Uşaq ombudsmanı). Məqalə, Azərbaycan xalqının ümummilli lideri H.Əliyevin anadan olmasının 93-cü ildönümünə həsr olunmuş "Heydər Əliyev və Azərbaycanda hüquqi dövlət quruculuğu" mövzusunda Beynəlxalq elmi-praktik konfransın materialları. Bakı, 2 iyun 2016, s.263-267

18. Специализированные ювенальные суды как важный элемент механизма защиты прав несовершеннолетних. Tezis, Материалы VII Международной научно-практической конференции «Безопасность человека в условиях глобализации: современные правовые парадигмы». Киев, 24 февраля 2017, c.23-25

# РЕЗЮМЕ

Диссертация Азизовой Сабины Гамид кызы «Защита прав несовершеннолетних в гражданском процессе: международные стандарты и законодательство Азербайджанской Республики», представленная на соискание ученой степени доктора философии по праву по специальностям 5615.01 – «Гражданский процесс» и 5603.01 – «Международное право; права человека», является цельным самостоятельным законченным научно-исследовательским трудом. Целью диссертационного исследования является комплексный научно-правовой анализ норм и институтов гражданского процессуального права и международных стандартов, позволяющих тщательно проследить законодательную и международную регламентацию защиты прав несовершеннолетних при отправлении правосудия по гражданским делам.

Работа состоит из введения, трех глав, объединяющих одиннадцать подглав, заключения, списка использованной литературы и приложений.

Во Введении обосновываются актуальность и степень разработанности темы, определяются цели и задачи исследования, сформулированы основные положения, выносимые на защиту.

Глава I «Понятие несовершеннолетних и основания защиты их прав» включает четыре подглавы, в которых рассматриваются вопросы формирования понятия несовершеннолетнего в международном праве (1.1), в законодательстве Азербайджанской Республики и мусульманском праве (сравнительный анализ) (1.2), системы гражданско-процессуальных норм защиты прав несовершеннолетних в международном праве и законодательстве Азербайджанской Республики (1.3), а также вопросы судебной защиты как гарантии обеспечения прав несовершеннолетних (1.4). Глава II «Особенности защиты прав несовершеннолетних в гражданском процессе» состоит из трех подглав, в которых рассмотрены формы участия несовершеннолетних в гражданском процессе (2.1), защита их имущественных (2.2) и личных (неимущественных) прав в гражданском процессе (2.3). Глава III «Перспективы дальнейшего развития защиты прав несовершеннолетних в гражданском процессе в соответствии с международными стандартами» состоит из четырех подглав, в которых исследуются европейские стандарты в гражданском судопроизводстве (3.1), проблемы применения процедуры медиации в гражданском процессе (3.2), необходимости учреждения ювенальных судов (3.3) и института детского омбудсмана в Азербайджанской Республике (3.4).

В заключение подводятся итоги исследования. В приложении к диссертации представлены таблицы, даны авторские модели некоторых норм действующего ГПК, СК и ГК Азербайджанской Республики.

**SUMMARY**

The Dissertation work "Protection of the rights of minors in civil process: international standards and legislation of the Republic of Azerbaijan" is presented for a doctor's degree in the PhD in Law on specialties 5615.01 - "Civil process" and 5603.01 – "İnternational Law; Human Rights" by Sabina Azizova.

Dissertation consists of the Introduction, three Chapters, comprising of eleven sub-chapters, conclusion, List of the literature (references) and Appendix. Introduction of the doctoral dissertation covers of the topic, level of research, topicality aims, goals and tasks, the object and subject, methods and methodology of the research and its novelty. Principal importance is substantiated, as well as information on approbation of the work is given.

The first Chapter of the research – "The concept of minors and the basis for the protection of their rights" consists of four sub-chapters: Formation of the notion of a minor in international law (1.1), The concept of a minor in the legislation of the Republic of Azerbaijan and Islamic law (comparative analysis) (1.2), System of civil procedural norms for protection of the rights of minors in international law and legislation of the Republic of Azerbaijan (1.3), Judicial protection as a guarantee of ensuring the rights of minors (1.4).

The second Chapter "Features of the protection of the rights of minors in the civil proceedings" consists of three sub-chapters, which consider the forms of participation of minors in the civil process (2.1), protection of their property (2.2) and personal (non-property) rights in the civil process (2.3).

The third Chapter of the dissertation "Prospects for further development of the protection of the rights of minors in the civil process in accordance with international standards" consists of four sub-chapters exploring European standards in civil proceedings (3.1), the problems of applying the mediation procedure in the civil process (3.2). In this part of the dissertation, the need to establish juvenile courts (3.3) and the Ombudsman for the rights of the child (3.4) is also investigated. The conclusion part summarizes achieved in the outcomes dissertation, practical recommendations given for improvement of the legislation.

The tables and the models of some norms of the current Civil Procedural Code, Family Code and Civil Code of the Republic of Azerbaijan are given the appendix to the dissertation.

**МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ**
**БАКИНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ**

***На правах рукописи***

**САБИНА ГАМИД кызы АЗИЗОВА**

# ЗАЩИТА ПРАВ НЕСОВЕРШЕННОЛЕТНИХ В ГРАЖДАНСКОМ ПРОЦЕССЕ: МЕЖДУНАРОДНЫЕ СТАНДАРТЫ И ЗАКОНОДАТЕЛЬСТВО АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ

**Специальности: 5615.01 – "Гражданский процесс"**
**5603.01 – "Международное право; права человека"**

## АВТОРЕФЕРАТ

**диссертации на соискание ученой степени доктора философии по праву**

**БАКУ-2017**